**UOT 101.1**
**https://doi.org/10.30546/ifs.2025.2(45).051**

# HAQLAR VƏ İNSAN HÜQUQLARINA FƏLSƏFİ MÜNASİBƏT

**Radif Mustafayev**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
hradif@mail.ru
https://orcid.org 0000–0003–0046–1440

**Xülasə.** Məqalədə fəlsəfi baxımdan haqların hüquqlardan prinsipial olaraq fərqləndiyi qeyd edilərək onların müxtəlif diskurslarda necə istifadə edilməsinə diqqət çəkilmişdir. Bu baxımdan haqlar heç də həmişə insan hüquqları ilə eyniyyət təşkil etmədiyindən onlardan istifadə meyarlarının dəqiqləşdirilməsinə cəhd edilmişdir.

**Məqsəd**: Haqların mahiyyətini aydınlaşdırmaq və onların insan hüquqlarından fərqləndirilməsinin fəlsəfi və elmi əsaslarını göstərmək.

**Metodologiya**: Haqlar və insan hüquqlarının hermenevtik paradiqmalar nöqteyi-nəzərindən tədqiqi.

**Elmi yenilik**: Haqlarla insan hüquqlarının eyniləşdirilməsinin başlıca səbəblərini aydınlaşdırmaq.

**Açar sözlər**: insan, haqlar, insan haqları, insan hüquqları, universallıq, neqativ hüquqlar, pozitiv hüquqlar, kriteriya

# ФИЛОСОФСКОЕ ОТНОШЕНИЯ К ПРАВАМ И ПРАВАМ ЧЕЛОВЕКА

**Радиф Мустафаев**

**Резюме**. В статье отмечается, что с философской точки зрения права принципиально отличаются от прав человека. Акцентируется внимание на том, как понятия «права» и «права человека» используются в различных дискурсах. В связи с этим предпринимается попытка уточнить критерии их применения, поскольку права не всегда тождественны правам человека.

**Цель:** раскрыть сущность прав и показать философские и научные основания их отличия от прав человека.

**Методология:** изучение прав в свободе человека с точки зрения герменевтической парадигмы.

**Научная новизна:** выявление основных причин приравнивания прав к правам человека

**Ключевые слова:** человек, права, права человека (юриспруденция), универсальность, негативные права, позитивные права, критерии

# PHILOSOPHICAL ATTITUDE TO RIGHTS AND HUMAN RIGHTS

**Radif Mustafaev**

**Abstract.** The article notes that, from a philosophical perspective, rights are fundamentally different from human rights and draw attention to how they are used in various discourses. In this regard, an attempt is made to clarify the criteria for their use, as rights are not always identical to human rights.

**Purpose:** To explain the essence of rights and show the philosophical and scientific basis for their difference from human rights.

**Methodology:** The study of human rights and freedoms from the point of view of hermeneutic paradigms.

**Scientific novelty:** To find out the main reasons for equating rights with human rights

**Keywords**: man, rights, human rights, human rights theory, universality, negative rights, positive rights, criterion

**Giriş**

Bir çox anlayışlara münasibətdə olduğu kimi, haqlar və hüquqlar məfhumları da qarışdırılmaqda və ya mahiyyət fərqlərinə baxılmadan eyniləşdirilməkdədir. Nəticədə, haqlardan bəhs edərkən insan hüquqlarından və əksinə, insan hüquqlarından danışıb haqları nəzərdə tutmaq adi hallardan birinə çevrilmişdir. Üstəlik, iş o yerə gəlib çatmışdır ki, artıq insan azadlıqları sırasında təkcə insanlara verilən hüquqlar çıxış edib, haqdan, o cümlədən insan haqlarından özgələşmiş və ya təcrid edilmiş insan hüquqlarının tətbiq və təbliği dəb halını almışdır. Beləliklə də, insan hüquqlarının prioritetliyini əldə rəhbər tutmağa çalışan müasir dövr cəmiyyətlərdə insan hüquq və azadlıqları adı altında, əslində, insan haqlarına və ümumiyyətlə, istənilən bir haqqa zidd olan münasibətlərin qanuniləşdirilməsi prosesi günü-gündən artmaqdadır. Mövcud duruma aydınlıq gətirmək baxımından, fikrimizcə, haqq anlayışının mahiyyətinə diqqət edilərək "ontoloji tarazlıq" naminə davranılması olduqca vacibdir. Daha sonra isə, haqlarla insan hüquqlarının qarşılıqlı nisbətinə aydınlıq gətirərək sonuncuların müasir izahatlarına diqqət yetirilməsi məqbul sayıla bilər. Xüsusən də, bir müddət Avropada müşahidə edilən və hal-hazırda "Qoca dünya"nın müasir çıxıntısı olan ABŞ cəmiyyətində də eynicinslilərin nikahlarının legitimləşdirilməsinin insan haqları və azadlıqları kontekstində təqdim edilməsi məsələsi yuxarıda qeyd etdiyimiz prinsipial qüsurlardan irəli gələn xüsusi bir haldır. Odur ki, konkret bir hal kimi bu təzahür də doğru müqəddimədən başlamaq prinsipi ilə insanlara verilmiş hüquq olub, insan haqları və bütövlükdə haqlarla ziddiyyət təşkil etdiyi aşkarlana bilər. O cümlədən də, məqaləmizdə əsasən haqların insan hüquqları ilə eyniləşdirilməsi üçün müqəddəm şərt rolunu oynamış "təbii vəziyyət"dən irəli gəlmiş "təbii hüquq" anlayışına aydınlıq gətirilmişdir.

**Haqlar və insan hüquqlarının müəyyən edilməsi**

Haqları insan haqları şəklində verərək bu anlayışı "ideya" adlandırmış prof. Ə.Abbasov onun qədim köklərə malik olduğunu vurğulayıb qeyd edir ki, "…insan haqları ideyasının ortaya çıxdığı vaxtdan indiyə kimi onun şərhində, anlamında, ictimai praktikada reallaşmasında ciddi müxtəlifliyin olmasına baxmayaraq, onun əsas məğzinin insan varlığının qorunmasına yönəlməsi dəyişməz olaraq qalmış və inkişaf etmişdir" [1, s.14]. Bizə görə isə haqlar ideya olmaqdan daha çox, ideal olaraq təbiət, cəmiyyət və təfəkkürün real durumunu tənzimləyə biləcək möhtəşəm vasitələrdir. Bu baxımdan, fikrimizcə, hər şeydən öncə onların daşıdıqları mahiyyət açıqlanmalı və haqların yalnız elmi və fəlsəfi mahiyyətlərinə diqqət çəkməyib, onların başqa təqdimatları da xatırlanmalıdır. Beləliklə də biz insan haqlarının sosial hadisə olduğunu inkar etməyib, bütövlükdə haqların ontoloji mahiyyətinə diqqət çəkilməsini olduqca zəruri hesab edirik. Belə ki, fikrimizcə, haqların ontoloji baxımdan təkcə bəşəriyyətə aid bir ideya olması onların İlahi tərəfindən bəşəriyyətə bəxş edilmiş bir nemət olması barədə fikirləri kölgədə saxlaya bilməz. Çünki bəşər tarixində hüquqsuzluq dönəmlərinin olduğunu təsbit edə biləcəyimiz təqdirdə, bundan çıxış edib, dünyada hansısa azadlıqsız mövcudluq mümkün olmadığı kimi, heç zaman haqsız mövcudluğun olduğunu da iddia edə bilmərik. Sadəcə, haqlar probleminə münasibətdən asılı olaraq mövcud hüquq sistemləri haqsızlıq təəssüratını formalaşdıraraq onların fərqli təqdimatlarına və ya köklü şəkildə inkar edilməsinə gətirib çıxarmışdır. Adətən ayrı-ayrı dönəm, region və məktəblərə aid edilən haqlar əksər hallarda bəşəri ideya şəklində təqdim edilərək inkişaf dinamikaları təhlil edilməkdədir. Halbuki, ilkin miflərdən tutmuş səmavi dinlərə qədər bunların hər birində haqların tanrılardan və ya ilahi bir nemət olduğunu görmək heç də çətin deyildir. Bu baxımdan haqların meydana çıxmasına münasibətdə "ontoloji tarazlığı" qorumaq baxımından onların problemlər olub, birmənalı qarşılanmadıqlarını qeyd edə bilərik. Xüsusən də, səmavi dinlərdə haqlar bəşəriyyətə bəxş edilmiş nemətlərdən biri olub onların pozulması və ya onlara riayət edilmədiyi hallar şiddətlə qınanılıb inkar edilmişdir. Belə ki, İbrahimi ənənəsinin başında gələn iudaizm dininin özü yəhudi xalqının haqsızlıq və bundan irəli gələrək hüquqsuzluğundan qaynaqlanaraq firon zülmündən qurtulmaq cəhdləri buna bariz nümunələrdəndir. O cümlədən də, Orta əsrlər müsəlman Şərqinə diqqət etdikdə burada haqqın ədalətlə birlikdə götürülərək geniş məzmuna malik olduğunu görə bilərik. Belə ki, XII-XIII əsrlərdə yaşamış Azərbaycan filosofu Siracəddin Urməvinin baxışlarından oxuyuruq ki,

“Ədalətə yalnız rəiyyətlərin hifzi istinad etmir. Eləcə də Yer-göy və o ikisi arasında nə varsa hamısının xilqətinin bünövrəsi ədalət üzərində qurulmuşdur” [2, s.226]. Odur ki, haqları təkcə insanlara aid etməyib, bütün mövcudluqların haqqa sahib olduqlarının müasir praktikada təsdiqlənməsi heç də təsadüfi deyildir.

Həmçinin unutmayaq ki, “təbii haqq” anlayışının tərəfdarlarından biri olan Con Lokk da bunun Tanrı tərəfindən verildiyini vurğulamışdır. Belə ki, ona görə, “…bütün insanlar təbii halında bərabərdirlər və Yaradıcı tərəfindən “təbiətcə” həyata, azadlığa və mülkiyyətə sahibdirlər” [3, s.66]. Haqlar, fikrimizcə, ideal olduğu kimi, “təbii hal” da, C.Lokka görə, “özündə seçici olub, bir-birini qarşılıqlı olaraq gücləndirən tarixi və psixoloji, analitik və mədəni olan metaforadır” [3, s.66]. Bununla da C.Lokk qeyd edir ki, “O (“təbii hal” – R.M.), bizi adi hüququn hakimiyyəti altında olmayacaq insanların vəziyyətinə aparıb çıxarır” [3, s.66]. Bunun bir analitik abstraksiya olduğunu etiraf etmiş C.Lokk onunla ayrıca tarixi keçmişə dolayısı istinadlar etmişdir. Belə ki, o özünün “Vətəndaş cəmiyyəti haqqında ikinci traktat”ında “Qarsilazo de la Veqanın Peru tarixində xatırlatdığı naməlum adada iki nəfər, yaxud Amerika meşələrində isveçrəli ilə hindlinin görüşünə” antropoloji istinadını əlavə etmişdir [3, s.66-67]. Bununla da keçmiş tariximizi canlandırmaq istəmiş C.Lokka görə, “Psixoloji planda təbii hal haqqında metafora individualizmin, avtonomiyanın, müstəqilliyin təsbitini və öz imkanlarına əmin olmağı təqdim edir” [3, s.67]. Başqa sözlə deyilərsə, “İnsan ona təqdim edilmiş (! – R.M.) haqlara görə başqalarına heç nə borclu olmayan kimsə kimi nəzərdən keçirilir” [3, s.67]. Bu zaman başqa bir maraqlı məqam onunla bağlıdır ki, “Sözügedən haqlar ona doğumu və adından mənsub olduğu tarixi ictimaiyyəti tərəfindən verilmir” [3, s.67]. S.Benhəbibə görə C.Lokkdan öncə mənəviyyat təbliğ etmiş stoiklər fəlsəfəsində və Tomas Hobbsun “Leviafan” əsərində daha dolğun boyalarla öz əksini tapmış bu fikirdə deyilir ki, “Bunu (insanlara haqq verilməsini – R.M.), əslində, onun Yaradıcısı və [Tanrının yaratdığı] təbii qanun edir ki, sağlam ağıl və xoş hafizəsində hər bir insan onda bərabərlik və avtonomluq haqqında radikal şahidlik tapmaq üçün onunla nizamlana/tarazlana bilər” [3, s.67]. C.Lokkun aid olduğu yeni burjuaziya individi, S.Benhəbibə görə, “öz qarşısında yalnız Yaradanı görür” [3, s.67]. Başqa sözlə, “elə bu başlanğıc, “nizamsız əlaqələrdə ilahi nurdan doğmuş” insan mövcudluğunun müstəqilliyi və avtonomluğu burjua individini indi legitim vətəndaş hakimiyyətinin qanunlarından vətəndaş asılılığına transformasiya etməyə məcbur edir” [3, s.67]. Hamının Tanrının gözündə bərabər olmadığını əsas gətirərək C.Lokk iddia edir ki, əvvəlcə bütün dünya Amerika kimi olmuşdur. Belə ki, “Lokk üçün Amerika “təbii vəziyyətin” bərqərar olduğu yer olur” [3, s.67]. Uyğun olaraq da konkret bir əraziyə aid edilən bu məntiqi abstraksiya onun sakinlərinə - Amerika hindularına da aid edilərək onlar “təbii halda olan insanlar” hesab edilirlər. Belə ki, “Lokkun baxışlarına görə, hamının tabe olacağı ümumi hakimiyyət olmadığı təqdirdə, təbii vəziyyət hər şeydən öncə və başlıca olaraq “təbiət Qanunlarını icra etmək”də fərdi mühakimələrin meydana gəlməsini nəzərdə tutur” [3, s.67]. Bu zaman hər kəs də özündən başqa heç kimin haqqı olmayan öz bədəninin və əllərinin zəhməti ilə qazandıqlarına sahiblənir. Beləliklə də, C.Lokk Amerika hindularını Avropadakı vətəndaş cəmiyyətinin təkamül edən tarixinə müncər etmiş olur ki, “burada onlar (Amerika hinduları – R.M.) təbii vəziyyət səviyyəsini təmsil edirlər” [3, s.68]. Bununla da, tədqiqatçılara görə, C.Lokk iki vəzifəni yerinə yetirmişdir ki, bunlardan biri, “Lokkun müəyyənliyinə görə, hindu hakimiyyəti bu legitimliyə uyğun gəlməyərək keçmiş “təbii vəziyyət” səviyyəsində qalaraq müasir Avropa siyasi təşkilinə tay deyildir” və ikincisi, “hinduların torpaq istifadə etmək ənənələri [də] onun üçün legitim mülkiyyət variantı olmayıb, Avropanın inkişafının erkən dövrünə bərabər olduğundan Avropadakı mülkiyyətlə [səviyyəcə] bərabər deyildir” [3, s.68]. Bütün bunların nəticəsində, S.Benhəbibin qeyd etdiyi kimi, Qərb liberalizminin banilərindən biri hesab edilən bu şəxsin məqsədi heç də insan haqları və azadlıqlarının təsbit edilməsinə səy göstərmək deyil., tədqiqatçı C.Tallinin fikrincə, “nəticədə [Şimali və Cənubi] Amerikanın koloniyalaşdırılması qurama fəlsəfi əsaslandırılmışdır” [3, s.68].

Başqa bir “təbii haqlar” nəzəriyyəçisi və ya təbii hüququn banilərindən biri hesab edilən Qüqo Qrossinin baxışlarına da diqqət edib onun bunu, sadəcə, Hollandiya tərəfindən ələ keçirilmiş qənimətləri leqallaşdırmaq baxımından irəli sürdüyünü görə bilərik [4].

Bu baxımdan biz, insan haqlarının genezisinə münasibətdə “ontoloji tarazlığı” təmin edərək qeyd etmək istərdik ki, doğrudan da, yuxarıda verilmiş sitatda oxuduğumuz kimi, insan haqlarının məğzini insan varlığının (bizsə deyərdik, “mövcudluğunun”) qorunmasına yönəlməsi təşkil edir. Elə bu cür

yönəlişin müasir dövrdə insan hüquqlarının inkişafına gətirib çıxartdığı kimi, fikrimizcə, sözügedən inkişafda tərəqqinin, yoxsa tənəzzülün aşkarlanması ən başlıca məsələdir. Bunu aydınlaşdırmaq üçün isə prof. Ə.Abbasovun da etdiyi kimi, “…ayri-ayrı ölkələrdə, müxtəlif mədəniyyətlərdə özünəməxsus xüsusiyyətlərə malik olmuş və təkamül yolu keçmiş…” insan hüquqları anlayışına müraciət etməliyik.

Doğrudan da, prof. Ə.Abbasovun vurğuladığı kimi, günümüzdə insan hüquqlarının müasir səviyyəsi bunu deməyə əsas verir ki, bunlar universallığa iddia etdikləri kimi, artıq onların (insan hüquqlarının) təkzibinə qarşı açıq-aşkar fikirlər irəli sürülmür. Elmi ədəbiyyata istinadən müəllif bildirir ki, “İnsan hüquqları anlayışı…azad fərdlərə öz seçimi üzrə hərəkət etmək, layiqli həyat və yaşamaq üçün müəyyən nemətlərə sahibliyi reallaşdıran, onların öz aralarında, həmçinin dövlətlə və bütövlükdə cəmiyyətlə qarşılıqlı münasibətlərini tənzimləyən hüquqi normaların məcmusu kimi izah olunur” [1, s.14]. Bu müəyyənlik və sonrakı izahlardan məlum olur ki, insan hüquqları insanın davranış və fəaliyyətində seçim azadlığı, “…insanın azad yaşaması və inkişafı üçün dövlət tərəfindən ən yaxşı şəratin yaradılması”dır. İnsan hüquqlarının təzahürlərinə gəldikdə isə, Ə.Abbasov bunun “qədimdən bəri müxtəlif din və mədəniyyətlərdə öz təzahürünü” tapdığını qeyd edir. Fikrini əsaslandırmaqdan ötrü o bildirir ki, “məsələn, bütün dinlərdə insanlarla xoş rəftar etmək, onlara işgəncə verməmək, yoxsullara, yaşlılara, əlillərə yardım göstərmək, uşaqlarla mehriban davranmaq və s. kimi normaların olduğu danılmazdır. Bütün bunlar da insan hüquqlarının təşəkkülündə öz rolunu oynamışdır” [1, s.15]. Deməli, buradan da göründüyü kimi, bütün sadalanlar hələ insan hüquqları olmayıb, sadəcə, bu hüquqların təşəkkülündə öz rollarını oynamış dini və ya mədəni norma və prinsiplərdir. Yaxud da, kitabın başqa bir yerində müəllif qeyd edir ki, “tarixin hər bir zaman kəsiyindəki fikir və ideyalar, həmin dövrün ictimai-siyasi həyat şərtləri, düşüncə tərzi insan hüquqlarının formalaşmasına öz təsirini göstərmişdir” [1, s.22]. Xüsusən də, “Müasir dövrdə insan hüquqlarının mahiyyəti və bu hüquqların müdafiəsi üçün işlənib hazırlanmış müdafiə mexanizmlərinin, əvvəlkilərə nisbətən kifayət qədər mütərəqqi və effektli olduğu danılmazdır” [1, s.22]. Üstəlik, professor beynəlxalq qanunvericiliyə əsaslanaraq bildirir ki, “…insan hüquqlarının coğrafi və mədəni mənsubiyyətindən, ictimai və siyasi quruluşundan asılı olmayaraq bütün dövlətlərdə birmənalı anlaşılması bu hüquqların beynəlxalq xarakter daşıdığını sübut edir” [1, s.23].

İnsan hüquqlarının həm kollektiv subyektlərin, həm də fərdlərin hüquqları ilə izah edildiyini xatırladan tədqiqatçıya görə, “insan hüquqları sosial-siyasi, iqtisadi, mədəni münasibətlərdə reallaşdığından bu münasibətlərdəki demokratik prinsiplərin (qanunun aliliyi, azad seçkilər, fikir azadlığı, bazar iqtisadiyyatı, yaxşı idarəçilik və s.) mövcudluğu insan hüquqlarının ən yüksək səviyyədə təmin olunması ilə nəticələnir” [1, s.24].

Sözügedən əsərdə prof. Ə.Abbasov hüquqların hüdudlarının müəyyən olunmasının çox önəmli olduğunu da vurğulamışdır. Məlum olduğu kimi, “insan hüquqlarının hüdudları əsasən beynəlxalq hüquqi sənədlərdə və dövlətlərin normativ hüquqi aktlarında təsbit olunur” [1, s.25]. Amma, müəllifə görə, “…dövlətin insan hüquqlarının və əsas azadlıqlarının məhdudlaşdırılması istiqamətində fəaliyyəti bunun üçün tələb olunan əsasın icazə verdiyi həddi keçməməlidir” [1, s.25].

Kitabda prof. Ə.Abbasov insan hüquqları sisteminə daxil olan hüquqlar arasında müəyyən ierarxiyanın olduğunu qeyd etmişdir. Amma fikrimizcə, bu hüquqlar sırasında ən ümdə olanları - yaşamaq, azad olmaq və mülkiyyətə malik olmağı, hüquq adlandırmaq heç də doğru deyildir. Çünki istər yaşamaq, istər azad olmaq, istərsə də mülkiyyətə malik olmaq insan hüquqları olmazdan öncə insanlara məxsus haqlardır. Bunu daha da əsaslı göstərmək üçün yenə də sözügedən ədəbiyyata müraciət edib insan haqlarının nə olduğunun müəyyənləşdirilməsinə keçək. Belə ki, insan haqlarını insan hüquqları anlamında işlətmiş müəllif qeyd edir ki, “…insan haqları öz-özlüyündə elə mürəkkəb bir fenomendir ki, onun mahiyyətini və məzmununu dərk etmək üçün bu hüquqların sosial fəlsəfənin metanəzəri, inteqrativ gücü və imkanlarından istifadə etməklə araşdırılması gərəkdir” [1, s.17]. Buradan aydın göründüyü kimi, insan haqlarını insan hüquqları ilə eyniləşdirmiş müəllif daha sonrakı ifadələrində də “insan hüquqlarının mahiyyətinin hərtərəfli aydınlaşdırılması”ndan, “insan hüquqlarının ictimai praktikada yetərincə həyata keçirilməsi”ndən və yaxud da “bir ideya, universal prinsip, həyat fəlsəfəsi və ictimai praktika kimi zəngin sosial-siyasi, mədəni, dini, iqtisadi, əxlaqi-mənəvi və hüquqi təməllərə malik insan hüquqları”ndan bəhs edir [bax:1, s.17]. Professor Ə.Abbasov insan haqları ilə əlaqədar fikirlərində isə qeyd edir ki, “insan haqlarının fəlsəfi-siyasi mahiyyəti insan

varlığının bünövrəsini təşkil edən fərdi azadlığa nail olmaqdan, şəxsiyyətin özünüifadə, yaradıcılıq və təşəbbüskarlıq qabiliyyətlərinin, imkanlarının inkişafına, ümumiyyətlə, cəmiyyətin yaradıcı mənbələrinin reallaşmasına üstünlük verməkdən ibarətdir” [1, s.17]. Bizə görə isə, insan haqları, insanın azad mövcudluğunu, qabiliyyət və imkanlarını yalnız təsbitləyir. Professor Ə.Abbasovun qeyd etdiyi “…fərdi azadlığa nail olmaq…, qabiliyyətlərin, imkanların inkişafı…, ümumiyyətlə, cəmiyyətin yaradıcı mənbələrinin reallaşmasına üstünlük vermək…” kimi məqamlar artıq insan haqlarına deyil, insan hüquqlarına aid məsələlərdir. Bu anlamda, əlbəttə ki, “insan haqlarının həm insanla, həm insanlığı şərtləndirən amillərlə bağlılığı bu haqların insan və insanlıqla əlaqədar olan sosial-siyasi, iqtisadi, mənəvi-psixoloji təməllərə dayanan hüquqi təzahürlərlə, eləcə də insanın əxlaq ölçüləri çərçivəsində münasibətlər sistemi ilə izah edilə bilər” [1, s.17-18].

Yenidən insan hüquqlarından bəhs edən müəllifin bunu haqlı olaraq əlaqələndirdiyi insan probleminə münasibətdə göstərdiyi misalda bildirilir ki, “XX əsrin ikinci yarısına qədər olan dövrdə hər bir insanın doğulduğu andan başlayaraq hüquqlara malik olduğu iddia edilirdisə də, sonralar bu fikir müəyyən müsbət dəyişikliyə məruz qalmışdır. Belə ki, insan hüquqlarının inkişafı və bu sahədə ayrı-ayrı dövlətlərin hüquq təcrübəsi əsasında insanların hətta ana bətnindən hüquqlara malik olması qəbul edilmişdir” [1, s.18]. Bunu “…ana bətnindəki olan uşağın yaşamaq hüququ səbəbindən aborta icazə verilməməsi (müəyyən istisnalar nəzərə alınmaqla), ana bətnindəki uşağın fəaliyyət qabiliyyəti olmasa belə, varislik hüququ baxımından hüquq qabiliyyətli olması” ilə dəqiqləşdirmiş müəllifdən fərqli olaraq biz hesab edirik ki, ana bətnində olan uşağın yaşamaq hüququ deyil, yaşamaq haqqı təsbitlənir və bu haqqa əsasən də doğulmamış körpənin belə, yenə də elə bu haqqa əsasən varislik hüququnu əldə etdiyini söyləmək daha doğru olardı.

Yaxud da, professor Ə.Abbasov başqa bir yerdə qeyd edir ki, “İnsan haqları ideyası yarandıqdan bəri ona müxtəlif adlar verilmişdir” [1, s.19]. Belə ki, müəllifə görə, “bu ideya (insan haqları — R.M.) ilk əvvəllər “təbii hüquqlar”, “əsas hüquqlar”, “şəxsi hüquqlar”, “şəxsi azadlıqlar” anlayışları ilə ifadə olunurdu” [1, s.19]. Halbuki professor Ə.Abbasovun insan haqları ideyasına aid etdiyi bu hüquqlar əslində elə insana aid edilən “təbii haqlar”, “əsas (başlıca insan ) haqlar(ı)”, “insan haqları və azadlıqları”dır. Əlbəttə, müəllifin qeyd etdiyi kimi, “…bu ifadələrin fərqləndirici elementləri də mövcud” olduğu kimi, fikrimizcə, “…bütün hallarda söhbət[in] məhz insana məxsus hüquqlardan” getdiyini iddia etmək doğru deyildir. Çünki istənilən bir insan hüququ bu təməl prinsiplərə, haqlara əsaslanıb ortalığa çıxaraq fərqləndirici elementləri ilə mövcud olur. Bu cür haqlardan “təbii hüquqlar” adı altında qeyd etdiyi “təbii haqlar”a münasibətdə müəllif yazır ki, “hələ XIX əsrin əvvəllərində ingilis liberalizminin banilərindən biri olan İyeremiya Bentam bu ifadəyə qarşı çıxaraq, “təbii hüquların” hər hansı sosial kontekstdən kənarda cəfəngiyat olduğunu iddia edirdi. Sonralar Karl Marks bu fikri müəyyən qədər dəstəkləyərək insanların ictimai münasibətlərdən təcrid olunmuş halda — sosial monada qismində baxılmasını yalnış mövqe hesab etmişdir. Amerikanın tanınmış alimi Cek Donell insan haqlarının insanın təbiətinin, əxlaqının, həyat tərzinin, davranışının güclü təsirinə məruz qaldığını iddia edir. Ona görə insan hüquqları ideyası insanın qabiliyyət və bacarıqlarını nəzərdə tutan sosial müstəvidir” [1, s.19]. Cürət edib geniş həcmdə verdiyimiz bu istinadda, əslində, “təbii haqlar”ın müəyyənliyinə aid yer almış hər bir mülahizəyə münasibət bildirərək bir daha “insan haqları” ilə əlaqədar mövqeyimizi dəqiqləşdirmək istərdik. Belə ki, birinci müəyyənlik (İ.Bentam) başqa sözlə deyilərsə, «təbii haqlar»a qarşı qoyula biləcək “ilahi haqlar”ın qəbuledilməzliyidir. Yəni, mövcud haqlar istənilən bir sosial kontekstdə yaranır və bu kontekstdən kənarda nonsensdir. Elə K.Marksın da insan haqlarına münasibətdə eyni mövqedən çıxış etdiyi göz önündə olsa da, bu insan haqları əsasında formalaşmalı olan fərdi azadlıq haqqı özünü tam doğrultmur. Bu səbəbdən də, prof.Ə.Abbasovun qeyd etdiyi kimi, K.Marks fikirlərində “…insanların ictimai münasibətlərdən təcrid olunmuş halda — sosial monada qismində baxılmasını yanlış mövqe hesab etmişdir”. Halbuki bunun özü K.Marks tərəfindən insanlara heç bir şəxsi azadlıq hüquqlarını tanımadığı anlamına gəlməyib, sadəcə, onun ictimai münasibətlər/ictimai haqlar çərçivəsində insan haqlarına yer verdiyini bildirir ki, bu da nə qədər mütərəqqi bir yanaşma olsa da, məhz insan haqlarını fərdi azadlıq haqqı müstəvisindən sosial monada səviyyəsinə qaldıra bilmədiyindən məhdud və totalitardır.

Amerikalı Cek Donelin mövqeyinə gəldikdə isə, burada müəllifin verdiyi müəyyənlikdən göründüyü kimi, əslində, söhbət insan haqlarından deyil, yenə də bu haqlar əsasında yüksələn insan

hüquqlarının formalaşmasından gedir. Əlbəttə, bu baxımdan insan hüquqlarının formalaşdığı sfera insan qabiliyyət və bacarıqlarının gerçəkləşdirildiyi sosial müstəvidir. Prof. Ə.Abbasov bəzi tədqiqatçıların bu baxımdan mövqelərini izah edərkən bildirir ki, belələrinə görə, “…insan hüquqları ictimai praktikada reallaşarkən həm insanların ehtiyacları, həm də dövlətin maraqları təmin olunmalıdır” [1, s.20].

**İnsan haqlarının hüquqlardan fərqləndirilməsi**

İnsan haqlarını insan hüquqlarından fərqləndirmək üçün bizə əsas verən növbəti mülahizə prof. Ə.Abbasovun insan haqları və insan hüquqlarının əxlaq normaları ilə münasibətlərini aydınlaşdırarkən aşkarlanır. Belə ki, müəllifə görə, “insan haqları ideyasının əxlaq normaları ilə əlaqələndirilməsi zəruri olsa da, bu normaların insan hüquqlarının ifadəsi üçün yetərli olmaması da bir reallıqdır” [1, s.20]. Belə ki, müəllifə görə, “insanların yaşadıqları cəmiyyətlərdə və mənsub olduqları mədəniyyətlərdə əxlaq normalarının müxtəlifliyi insan hüquqlarının məzmununa da müxtəliflik qatır” [1, s.20]. Fikrimizcə, birinci istinadda yer almış “…əxlaq normalarının insan hüquqlarının ifadəsi üçün yetərli olmaması…” fikri insan hüquqlarının qeyri-əxlaqi ola bilməsi anlamına gəlməyib, əxlaq normalarından fərqli olaraq hüquq normalarının qanuniliyinə və bu baxımdan da daha geniş məzmuna malik olduğuna işarədir. Əks halda qeyri-əxlaqiliyi aşkarlanan insan hüquqları dərhal haqlı narazılıqlar doğurur ki, bu da bizə insan hüquqlarının yalnız pozitiv olan insan haqlarından irəli gəldiyini deməyə əsas verir.

Müxtəlif cəmiyyətlər və mədəniyyətlərdə əxlaq normalarının müxtəlifliyi onların ümumi əxlaq normalarına zidd olmamaq tələbini özlərində ehtiva etdiyi kimi, bu müxtəlifliyin insan hüquqlarının məzmununa da müxtəliflik qatması yalnız lokal, məhəlli və ya regional səciyyə daşıyır. Xüsusən də, bu cür müxtəliflikləri insan hüquqları ilə əlaqədar müşahidə etmək mümkün olduğu halda, onların bütün bəşəriyyət üçün ümumi olan insan haqlarına şamil edilməsi mümkün deyil və ya yolverilməzdir. Buradan da insan haqlarının ümümbəşəriliyi, eyniliyi, insan hüquqlarının isə lokal, regional müxtəlifliyi aşkarlanmış olur. Elə bu anlamda yuxarıda müəyyən qədər toxunduğumuz insan haqları və hüquqlarının subyekti məsələsinə gəldikdə iddia edə bilərik ki, insan haqlarının subyekti fərd olsa da, mahiyyət etibarilə ümumi olanlar, insan hüquqlarının subyekti isə nə qədər də ümumi və ya kollektiv olanlar kimi anlaşılsa da, əslində, fərdi olanlar və ya fərdə aid olanlardır.

Buna baxmayaraq yenə də insan haqları ilə insan hüquqlarını eyniləşdirmiş prof. Ə.Abbasovun sözügedən kitabına müraciət etsək görərik ki, müəllif “insan haqlarına dair fəlsəfə, hüquq, sosial-siyasi sahələrdə mövcud olan bütün əsərlərdə hüquqların məhz insanlara məxsus olduğunun qeyd edildiyini” vurğulayır. Amma bu zaman o, insan haqlarının subyekti kimi “insan” dedikdə kimin nəzərdə tutulduğu məsələsinin və insanın dövlətlə münasibətləri müstəvisində vətəndaş kimi insan hüquqları subyektliliyindən irəli gələn məqamı fərqləndirmişdir. Birinci məsələni aydınlaşdırmış müəllif qeyd edir ki, “insan hüquqları haqqında qəbul edilmiş bütün beynəlxalq sənədlərdə insan və insanlardan danışılır” [1, s.21]. Bu sənədlərdəki “insan” anlayışının fərdi nəzərdə tutduğunu bildirən professor aydınlaşdırır ki, “Fərd dedikdə kəmiyyətcə tək olan, hüquq və azadlıqlara malik və hüquqlardan istifadə edən, azadlıqlardan bəhrələnən şəxs başa düşülür” [1, s.21]. Öz növbəmizdə, insan haqlarını insan hüquqlarından fərqləndirdiyimizə görə bu mülahizənin aşağıdakı şəkildə verilməsini daha dəqiq hesab edirik: “Fərd insan haqları baxımından ümumi-nominal, insan hüquqları baxımından isə kokret bir şəxsdir ki, bu şəxs müxtəlif haqq və azadlıqlara sahib olub, bunların əsasında formalaşmış müxtəlif hüquq və vəzifələrdən bəhrələnir”.

Belə ki, prof. Ə.Abbasovun da vurğuladığı kimi, insan haqlarının belə bir fərd kontekstində anlaşılması müasir dövrdə qərarlaşmış mövqe olub, “ilk zamanlar hüquq və azadlıqların subyektləri dedikdə müxtəlif insan təbəqələri (sosial qruplar, kastalar, tarixi birliklər və s.) başa düşülür və məhdudiyyətlər müəyyən olunurdu” [1, s.21]. Daha da fikrini aydınlaşdıran müəllif bildirir ki, “o dövrlərdə insan hüquqları müəyyən qrup insanlara şamil edilmiş, yalnız sonradan universallaşdırılmışdır” [1, s.21]. Bizə görə isə insan hüquqları müasir dövrdə universallaşdırılmasına baxmayaraq, yenə də fərdi və ya şəxsi səciyyə daşıyır. Halbuki bütün bunları insan haqlarına münasibətdə irəli sürmək mümkün deyildir. İnsan haqları həmişə universal olduqlarından müxtəlif dövrlərdə yalnız müxtəlif qrupların imtiyazı şəklində qanuniləşdirilmiş və ya hüquqi prinsip və normalar şəklinə salınmışdır. Bundan da irəli gələrək, istənilən bir qrupun, kastanın və s.-nin

hüquqsuzluğu bələlərinin haqsızlıqlarının tanınmasından irəli gəlirdi. Amma sonralar professor Ə.Abbasovun da misal göstərdiyi kimi, əgər 1215-ci ildə qəbul edilmiş “Böyük Azadlıq Xartiyası” Britaniya Krallığının fərqli silklərini və təbəqələrini haqlı bilib, onlara unvanlanaraq yazılmışdısa, 1948-ci ildə qəbul edilmiş “İnsan hüquqları (bizə görə, haqları) haqqında ümumi Bəyannamə” bəşər nəslinin bütün üzvlərini haqlı hesab edərək, hər bir insana xitabən yazılmışdır. Buna görə də müəllif bir daha haqlı olaraq iddia edir ki, “…insan hüquqları kollektiv deyil, fərdi xarakter daşıyır və müxtəlif qruplara daxil olan konkret fərdlərin hüquqları kimi başa düşülür” [1, s.21]. Odur ki, həqiqətən də, “tarixin hər bir zaman kəsiyindəki fikir və ideyalar, həmin dövrün ictimai-siyasi həyat şərtləri, düşüncə tərzi insan hüquqlarının formalaşmasına öz təsirini göstərmişdir” [1, s.22].

Burada bir məqamı qeyd edək ki, göründüyü kimi, prof. Ə.Abbasov da insan hüquqlarının formalaşdığından bəhs edir. Hətta müəllif vurğulayır ki, “müasir dövrdə insan hüquqlarının mahiyyəti və bu hüquqların müdafiəsi üçün işlənilib hazırlanmış müdafiə mexanizmlərinin, əvvəlkilərə nisbətən kifayət qədər mütərəqqi və effektli olduğu danılmazdır” [1, s.22]. Əlbəttə, insan hüquqlarını həm də insan haqları kimi təqdim edən müəllifə görə, oxşar prosesləri insan haqlarının formalaşması kimi də təqdim etmək olar. Amma, fikrimizcə, insan haqları ən ümumi, universal və hətta ideal olduqlarından onların formalaşmasına ediləcək hər hansı bir təsirdən deyil, onlara riayət edilib-edilməməsindən, bu prinsiplərin əldə rəhbər tutulub-tutulmamasından bəhs etmək daha doğru olardı. O cümlədən də, professorun vurğuladığı bir nüansı da gözardı edə bilmərik ki, “…insan hüquqları müasir dövrdə elə bir səviyyəyə gəlmişdir ki, artıq bu ifadə altında bütün dövlətlərdə eyni hüquqlar başa düşülməkdədir” [1, s.23]. Fikrimizcə, sözügedən durum təkcə hüquqların universallaşması ilə deyil, insan hüquqlarının formalaşdıqca insan haqlarıyla səsləşməsi və ya onlara uyğun səciyyə daşımaları, onların səviyyəsinə qalxmasıdır. Yaxud da, prof. Ə.Abbasov qeyd edir ki, “bu hüquqların pozulması ayrı-ayrı fərdlərin təklikdə hər birinin hüquqlarının pozulması ilə üst-üstə düşərsə, insan hüquqlarının pozulması kimi şərh oluna bilər”. Bizsə deyərdik ki, belə bir hal təkcə insan hüquqlarının deyil, o cümlədən insan haqlarının pozulmasıdır ki, bu da öz növbəsində konkret təzahürləri ilə əsasən hüquq pozuculuğu təəssüratını yaratmış olur. Müəllifin sonrakı pənərcikdə H.Hacızadəyə istinadən vurğuladığı insan hüquqlarının ictimaiyyətə yox, daha çox fərdə aid, fərdiyyət məsələsi olduğunu vurğulamasına biz, insan haqlarının əksinə, universal olub, bütün bəşəriyyətə aid olduğunu əlavə etmək istərdik. Bununla da insan haqları ümumi bir əsas kimi hər bir fərdə aid və ya fərdiyyət məsələsi olan insan hüquqlarının bazisini təşkil etmiş olur. “Ümumiyyətlə, şəxs dedikdə hüquqları ictimai praktikada reallaşan ictimai varlıq başa düşüldüyünü” vurğulamış prof. Ə.Abbasovun qeyd etdiyi kimi, “insan hüquqları sosial-siyasi, iqtisadi, mədəni münasibətlərdə reallaşdığından bu münasibətlərdəki demokratik prinsiplərin (qanunların aliliyi, azad seçkilər, fikir azadlığı, bazar iqtisadiyyatı, yaxşı idarəçilik və s.) mövcudluğu insan hüquqlarının ən yüksək səviyyədə təmin olunması ilə nəticələnir” [1, s.24]. Biz isə, müəllifin nəzərdə tutduğu münasibətlərdə mövcudluğunu vurğuladığı demokratik prinsiplərin insan haqları ilə səsləşmələri və ya birbaşa insan haqları olduqları halda insan hüquqlarının ən yüksək səviyyədə təmin olunduğu qənaətindəyik. Çünki “demokratik prinsiplər” belə adlandırdıqlarımız cəmiyyətlərə və quruluşlara münasibətdə fərqli olduqları təqdirdə, insan haqları özünün universallığı və ümumbəşəriliyi ilə seçilir. Bu baxımdan hansısa bir ölkəyə və ya cəmiyyətə demokratiya dərsi keçmək istəyənlər hər şeydən öncə buradakı insan haqlarının pozulub-pozulmadığını müəyyən etməzdən əvvəl sözügedən sistemə hörmət əlaməti olaraq insan hüquqlarının insan haqlarına uyğunluq dərəcəsini müəyyən etməlidirlər. Əks təqdirdə sistemin öz daxili imkanları nəzərə alınmadan, bəzi hallarda ona yad olan mücərrəd demokratik dəyərlər əldə rəhbər tutulub, hətta demokratiyanın beşiyi sayılan ölkələrdə belə, insan haqlarının pozulduğunu və hətta tapdalandığını iddia etmək olar. Bu isə müasir dövrdə insan hüquqlarının nəinki ən yüksək səviyyədə təmin olunmasına xidmət edir, hətta deyərdik ki, adi insan hüquqlarının belə kobud şəkildə pozulması ilə nəticələnir (məsələn, “Ərəb baharı” ilə əlaqədar cəmiyyətlərdə baş verən hadisələr buna bariz misaldır). Əslində, beynəlxalq müstəvidə insan haqlarının keşikçisi olan beynəlxalq qurumların da səlahiyyəti elə bu prizmadan zəruri olduğu təqdirdə, belələrinin hər hansı bir demokratik prinsiplərə istinad edərək antidemokratik hesab etdikləri sistemlərə qarşı sanksiyalaşdırıcı mövqedən çıxış etmələri sonda insan hüquqlarının ən yüksək səviyyədə təmin olunmasından daha çox, bu hüquqların bəzi hallarda geriyədönməz bir şəkildə dağıdılması ilə nəticələnir. Bütün bunların baş verməsini əngəlləməkdən ötrü, fikrimizcə, sözügedən qurumlar və siyasi dairələr hal-hazırda dəbdə

olan «ikili standart»larda ittiham edilməsinlər deyə, insan haqlarının prioritetliyini əldə rəhbər tutub insan hüquqlarına hörmət nümayiş etdirməlidirlər. Əks təqdirdə insan hüquqlarını bir və ya bir neçə cəmiyyətlərdə mövcud demokratiya modellərinə görə yönləndirmək istəyənlər, əksər hallarda özləri də “bilmədən” insan haqlarına laqeyd qalırlar ki, nəticədə universal, ümumbəşəri səviyyəyə qaldırılmış insan hüquqları bu hüquqlara xas olan fərdilik və ya fərdə aid olanlardan özgələşərək insan haqlarının antipoduna çevrilmiş olur. Buna görə də biz insan hüquqlarının insan haqları ilə səsləşməsi və ya onların səviyyəsinə qaldırılması dedikdə bu məqamı unutmayıb, təkcə ilə ümumi arasındakı dialektik münasibətlərin qorunub saxlanmasını nəzərdə tuturuq. Əks təqdirdə təkə (insan hüquqlarına) aid olanlarla, ümumiyə (insan haqlarına) aid olanların qarışdırılması ümumi dolaşıqlıqlara gətirib çıxartdığıtək, bunlara aid mahiyyətlərin də bir-birindən fərqləndirilməyərək eyniləşdirilməsi prinsipial yanlışlıqlara yol açır. Bu anlamda prof. Ə.Abbasovun “çox hallarda insan hüquqları dövlətin yeritdiyi, dövlət və qeyri-hökümət təşkilatlarının formalaşdırdığı bir fəaliyyət sahəsi hesab edilərək, qanunverici orqan tərəfindən qəbul olunmuş qanunlardan və dövlətin öz üzərinə götürdüyü beynəlxalq sazişlərdən irəli gələn öhdəliklər kimi qəbul edilir” [1, s.24] iradı da tam yerinə düşür. Əlbəttə, belə bir yanaşma, müəllifin qeyd etdiyi kimi, “…tam mənzərənin yaranmasında, daha əhatəli məzmunun, bəzi təfərrüatların aşkarlanmasında bu, şübhəsiz ki, kifayət deyildir” [1, s.24].

Prof. Ə.Abbasova görə, “təbii ki, vətəndaş dövlətdən təmin olunmasını tələb etdiyi hüquqlarının müqabilində dövlətə şərəf və ləyaqətlə xidmət etməlidir” [1, s.25]. Xüsusən də, asimmetrik risk nəzəriyyəsini xatırladan müəllif izah edir ki, “…dövlətin insan hüquqlarının və əsas azadlıqlarının məhdudlaşdırılması istiqamətində fəaliyyəti bunun üçün tələb olunan əsasın icazə verdiyi həddi keçməməlidir. Əks təqdirdə, “insan hüquqları” məfhumu həddən ziyadə deformasiyaya uğrayaraq universallığını itirə və mənasız bir ifadəyə çevrilə bilər” [1, s.25-26]. Fikrimizcə, bu məqam insan haqları və hüquqlarının vəhdəti məsələsinə aid bir nöqtədir ki, biz bunun dialektik formada olmalı olduğunu yuxarıda qeyd etsək də, müəllifin məsələyə sinergetik yöndən yanaşmasının bir sıra əsərlərində öz əksini tapdığını vurğulamaq istərdik. Yenidən insan hüquqlarının yaranma tarixinə və buna münasibətdə irəli sürülmüş fikirlərə geniş yer ayrılmış fundamental tarixi-fəlsəfi ekskursa qoşulmadan sırf insan haqları ilə əlaqədar fikirlərə müraciət etsək görürük ki, müəllifə görə, “insan haqları ideyasının təbii hüquqlardan qaynaqlandığını nəzərə alsaq, tam əminliklə deyə bilərik ki, insan hüquqları dövlətdən əvvəl mövcud olmuşdur” [1, s.79]. Buradan da belə bir nəticə çıxır ki, “deməli, insanın hüquq və azadlıqları dövlətlərin fərdlərə verdiyi “hədiyyə” olmadığı üçün dövlətin bu hüquqları birtərəfli məhdudlaşdırması da qəbuledilməzdir”. Yenə də, fikrimizcə, insan haqları və insan hüquqları anlayışı eyniləşdirildiyindən müəllifin “insan hüquqları dövlətdən əvvəl mövcuddur” ifadəsinin “insan haqları dövlətdən əvvəl mövcuddur” anlamında oxunması daha doğru olardı. Çünki tarixən hüququn elə dövlətdə yarandığı və buradakı hakimiyyətin sanksiyalaşdırılmış iradəsini ifadə etdiyi danılmazdır. Halbuki belə bir siyasi təsisat və hakim iradə olmazdan öncə də insan haqları mövcud olmuş və varlıq elə insanın mövcudluğu ilə əlaqəli universal, bəşəri bir haldır. Belə bir haldan hər hansı bir dövlətin, o cümlədən də siyasi quruluşun nələrisə “hədiyyə” etməsi artıq mövcud sistemdəki hüquqi münasibətləri əks etdirir. Haqlı olaraq insan haqlarını mahiyyətcə pozitiv anlayış hesab edən müəllifin fikirlərini yenidən redaktə edərək təqdim etsək deyə bilərik ki, “insan haqlarının məhdudlaşdırılması nəinki insana, nəticə etibarilə elə dövlətin özünə də ziyan vurur” [1, s.79]. Belə bir məhdudlaşdırma aləti isə yalnız dövlətin təsbitlədiyi hüquqlar, yaxud da cəmiyyətin hüquqsuzluq durumudur. Həqiqətən də, prof. Ə.Abbasovun bildirdiyitək, “tarixə nəzər salsaq görərik ki, insan hüquqları (bizsə deyərdik ki, insan haqları) pozulmuş və azadlıqları (bizsə deyərdik ki, hüquq və vəzifələri) məhdudlaşdırılmış ölkələrdə hakimiyyət sabitliyi, əmin-amanlıq, davamlı inkişaf deyil, siyasi və sosial qeyri-sabitlik, çevriliş və çevrilişə cəhdlər, sosial və iqtisadi tənəzzül mövcud olmuşdur” [1, s.79]. Amma cəmiyyətdə, məsələn, “…ümumi əxlaqa zidd olan və ya əxlaqın müəyyən meyarlarına görə ifrat səciyyə daşıyan haqdan istifadəyə görə (pornoqrafik, irqçi ədəbiyyat və kino, ifrat marginal qruplaşmalar) məhdudiyyətlərin müəyyən olun”masının özü hər bir ifratçılıq kimi haqqın ifratçılığının da eybəcərlik doğurduğunu təsdiqləyir [1, s.81]. Yaxud da, prof. Ə.Abbasovun köklü transformasiya şəraitində insan hüquqlarına, bizim isə insan haqlarına ən böyük əngəl, hətta təhlükə yaradan mənfur amillərdən biri kimi, sosial özgələşmədən bəhs etmişdir. Müəllifə görə, “özgələşmə, xüsusən, köklü və mürəkkəb transformasiya prosesində insan hüquq və azadlıqlarının adekvat anlaşılmasına, bu haqların təmin olunmasına

bilavasitə təsir göstərən sosial hadisədir” [1, s.95]. Bu istinadda verilmiş sosial hadisə hesab edilən özgələşmənin, fikrimizcə, insan haqlarının adekvat anlaşılmasına, insan hüquqlarının isə təmin edilməsinə bilavasitə təsir göstərdiyini qeyd etmək daha doğru olardı. Belə ki, əksər hallarda insan hüquq və azadlıqlarının adekvat anlaşılması heç də zəruri olmadığı kimi, insan haqlarının təmin edilməsi də insan hüquqları olmadan qeyri-mümkündür. Bütövlükdə isə, müəllifə görə, özgələşmə “sosial hadisə olmaqla yanaşı, insanı konkret şəxsiyyət və fərdiyyət səviyyəsində öz ictimai təyinatından uzaqlaşdıran prosesdir” [1, s.98].

**İnsan haqları və hüquqlarının müasir vəziyyəti**

Müasir dövrdə insan hüquqlarını məhdudlaşdıran proseslər sırasında qloballaşma prosesi də müəllifin diqqətindən yayınmamışdır. Belə ki, o, sözügedən ədəbiyyatda qlobal böhran anlamında bu proses sayəsində insanın özgələşməsinin özünün yüksək həddinə çatdığını vurğulamışdır. Xüsusən də bu durumda, əlbəttə ki, “…həm milli suverenlik, həm də insan haqları kimi fundamental məsələlər ziyansız ötüşmür” [1, s.111]. Bütün bunları ümumiləşdirmiş prof. Ə.Abbasov qeyd edir ki, “müasir dünyanın mövcudluq forması olan qloballaşma prosesini insan hüquqları ideyasının reallaşması baxımından iki (müsbət və mənfi) aspektdən qiymətləndirmək mümkündür” [1, s.113]. Əgər, təbirimizcə, bunlardan biri insan haqları və hüquqlarının təminatlanmasında öz müsbət təsirini göstərən universallaşmadırsa, müəllif bunu demokratiyanın universal dəyərtək yayılmasına və qərarlaşmasına şərait və imkan kimi izah edir. Halbuki, fikrimizcə, demokratiyanın universal dəyər olmasından öncə bu rolun sahibi olan insan haqlarına və bu haqlarla ziddiyyət təşkil etməyən insan hüquqlarının yayılma və qərarlaşma şəraiti və imkanlarından bəhs etmək daha doğru olardı. Məgər tarixi inkişafında avtoritar mərhələdə olan cəmiyyətlərdə insan haqları və hüquqlarının gerçəkləşməsi mümkün deyildirmi? Yaxud da, bütün insan hüquqlarının ideal bir şəkildə gerçəkləşdirilən konkret demokratiya modeli mövcuddurmu? Bu sualların özü artıq elmi jarqonda populist status qazanmış və mahiyyətinə varmadan bir qurtuluştək istifadə edilən “demokratiya” ibarəsindən irəli gəlir. Fikrimizcə, bəşəri mövcudluqla əlaqədar istinad ediləsi yeganə abstraksiya vardırsa, bu da insan haqları ifadəsidir ki, onun da gerçəkləşdirilməsində pozitiv addım elə insan hüquqlarının konkret inkişaf səviyyəsinin müəyyən edilməsidir. Əks təqdirdə baş verməkdə olan mənfiliklərdə təkcə qloballaşma prosesinin deyil, bundan süi istifadə edərək dünyaya demokratiya dərsini keçmək istəyən bütün qüvvələri də asanca günahlandırmaq olar. Belələrinin sırasında, müəllifin də qeyd etdiyi kimi, dünyanın ən demokratik ölkələri sayılan Qərb sivilizasiyasına müraciət etsək, “insan haqları (biz buraya insan hüquqlarını da əlavə edərdik) ilə bağlı bir sıra mühüm məsələlərə gəldikdə, ABŞ və Avropa İttifaqı ölkələri özləri üçün rəva bilmədiklərini başqaları üçün məqbul sayırlar. Beləliklə də, faktiki, dünyada tüğyan edən haqsızlıqlara, ədalətsizliklərə dəstək vermiş olurlar. İnsanların haqqı, bir qayda olaraq, iqtisadi, geosiyasi və hətta şəxsi maraqlara qurban verilir” [1, s.114]. Odur ki, bu cür maraqlardan çıxış edib dünyaya demokratiya dərsini verməkdə məqsəd heç də insan haqları və hüquqlarının təmin edilməsi olmayıb, əksinə, sözügedənlərin daha da geriyədönməz bir halda dağıdılıb məhv edilməsi və ya yerli şərtlərdən (tarixi, milli, dini və s.) özgələşdirilməsidir.

Həqiqətən də, prof. Ə.Abbasovun vurğuladığı kimi, “mahiyyət etibarilə, qloballaşma «bəşəriyyət» anlayışını yeni ontoloji məzmunla zənginləşdirir, bütün xalqlar üçün vahid həyat və fəaliyyət məkanı formalaşdırır” [1, s.118]. Amma bu zaman “…milli amilin itməsi və yoxa çıxması ehtimalını qəbul etməyə və yaxud qloballaşmaya adaptasiya olunmaq üçün milli özünəməxsusluğun və milli identikliyin qurban verilməsi fikri…qloballaşmanın çox ciddi, lakin heç də yeganə olmayan tələbidir ki, …milli identikliyini itirən insan çox şeyi, o cümlədən dini etiqad azadlığını və mədəni özünəməxsusluq hüququnu (bizsə deyərdik ki, haqqını) itirir” [1, s.119]. Elə “demokratiyanın yeni dalğası” məfhumu ilə “hər hansı maddi ehtiyaclardan, iqtisadi motivlərdən qaynaqlanan münasibət qlobal demokratikləşmənin qarşısını almamalıdır” [1, s.120] qənaətində olan müəllif C.Sorosun insan hüquqları və demokratiya məsələsində beynəlxalq təşkilatların öz üzərinə məsuliyyət götürməli olduqları fikrinə istinadən bildirir ki, “O (C.Soros-R.M.), hətta belə bir müddəa ilə çıxış edir ki, dövlətlər özlərinə məxsus suverenitetin bir hissəsini beynəlxalq təşkilatlara verə bilərlər” [1, s.120]. C.Sorosun buna misal kimi, “…öz suveren hüquqlarından (bizsə deyərdik ki, suveren haqlarından - R.M.) əhəmiyyətli dərəcədə imtina etmiş Avropa İttifaqı ölkələrini göstərdiyi” kimi, hər halda bu ittifaqda özünü doğrultmayan məqamların mövcudluğunun müasir gündəmi zəbt etdiyi də

unudulmamalıdır (məsələn, Yunanıstanın düşdüyü müasir durum baxımından). Əlbəttə, söhbət beynəlxalq təşkilatlardan gedirsə, bu təşkilatların ölkə suverenliyinə hörmət etməsi olduqca vacibdir. Çünki bu suverenliyin müəyyən məqsəd və maraqlar baxımından məhdudlaşdırılması heç də həmişə insan haqları və hüquqlarına uyğun bir şəkil ala bilmir. Odur ki, istənilən beynəlxalq təşkilatın suveren ölkənin haqq və hüquqlarını məhdudlaşdırmazdan öncə, bunların ən yüksək səviyyədə gerçəkləşməsini arzulaması və bu istiqamətdə fəaliyyət göstərməsi daha arzuedilən olardı. Əks təqdirdə, prof. Ə.Abbasovun qeyd etdiyi kimi, “Bütün dünya üçün nəzərdə tutulan konsept monosentrik ideyalar, təsəvvürlər əsasında qurula bilməz” [1, s.122]. Məntiqi olaraq universal konsepti mümkün hesab edən müəllif vurğulayır ki, bunun özü “nə amerikasayağı, nə də avropasayağı yeganə baxış bucağını qəbul etmir” [1, s.122]. Əslində, müasir dövrdə müşahidə edilən tendensiyaya münasibət bildirərək prof. Ə.Abbasov qeyd edir ki, “monosentrizm elə demokratiyanın özünü də boğan, sıxışdırıb meydandan çıxaran yanaşmadır” [1, s.122]. Yeri gəlmişkən, biz də bundan öncəki fikirlərimizin doğru anlaşılması üçün bir daha “Aristotelsayağı” demokratiyanı qəbul etmədiyimizin deyil, elə müasir dövrdə demokratiyanı monosentrizm şəklinə salınaraq insan haqları və hüquqlarının “kobud mədəni şəkildə” pozulmasının əleyhinə olduğumuzu vurğulamaq istərdik. Prof. Ə.Abbasov da bunu dəqiq olaraq aşağıdakı şəkildə tənqid etmişdir: “Qloballaşmanın monosentrik təməldən qaynaqlanaraq intensivləşməsi və yayılması bütün hallarda ideyaların, baxışların avtoritarizmidir ki, real diktaturalara yol açır. Nəticədə isə söz, iradə, fikir, dini etiqad azadlığı, layiqli yaşayış haqqı əlçatmaz mifə, reallaşmayan xəyallara çevrilir” [1, s.122]. Buraya biz müəllifin başqa əsərlərində fərqləndirməyə çalışdığı müasir anqlosakson liberalizmi ilə lebralizmin mahiyyət baxımından fərqli hadisələr olduğunu əsaslandırmasını da əlavə edə bilərik. Belə ki, bu xətti sözügedən əsərdə də davam etdirmiş prof. Ə.Abbasov müasir iqtisadi qloballaşmada korporasiyaları günahlandıraraq yazır ki, belələri ilə “Dünyanın həmrəyliyinə, bəşəri harmoniyaya xələl yetirən bu qeyri-məqbul strategiyanın həyata keçirilməsi məqsədilə, yeri gələndə, ayrı-ayrı dövlət başçılarına, siyasi xadimlərə ciddi təzyiqlər edilir, başqa ölkələrin iqtisadi həyatında təsirli yer tutub möhkəmləndirmək üçün müxtəlif adlar altında QHT-lər, fondlar, hərəkatlar yaradılır, sərfəli “ictimai-siyasi eşalon” formalaşdırılır, mədəniyyət sahəsi, kütləvi informasiya vasitələri ələ keçirilir, “cəlb” olunmuş müxbirlər, incəsənət adamları və ictimai-siyasi xadimlər vasitəsilə ictimai rəyə və psixologiyaya, insanların dünyagörüşünə, zövq və istehlak tələblərinə lazımi yönüm verilir” [1, s.123]. Mövqeyimizin tam dəstəkləndiyi bir məqam kimi müəllifdən aşağıdakı sitatı da vurğulamaq istərdik ki, “xüsusi zərurət olduqda transmilli korporasiyalar, böyük şirkətlər və onların təsiri altında hərəkət edən güc mərkəzləri, dövlət xadimləri, siyasi mafiya şəbəkələri bilavasitə hansısa ölkələrdə siyasi hakimiyyətin “demokratik qaydalara uyğun” formalaşmasına girişirlər və faktiki olaraq xalqların azad, sərbəst seçim hüququnu (bizsə deyərdik ki, haqqını) pozurlar” [1, s.123-124]. Bununla yanaşı, müəllif qeyd edir ki, “qismən azad”, “qismən demokratik” dəyərləndirilən ölkələr tədricən demokratiya yolu ilə inkişaf edənlərtək səciyyələnir ki, belə bir şəraitdə həmin ölkələrdə “…oliqarx, feodal-bürokratik, ifrat ənənəvi rejimlər, bir qayda olaraq, demokratik fasad arxasında fəaliyyət göstərməyə üstünlük verirlər, yəni siyasi mimikriya yolunu seçirlər” [1, s.124]. Bunun isə bu cür ölkələrdə mahiyyət dəyişikliklərinə gətirib çıxartmadığını vurğulayan tədqiqatçıya görə, “Həmin rejimlərin qloballaşmaya adaptasiyası, beynəlxalq münasibətlər sistemində iştirakı əksər hallarda milli maraqların və insan haqlarının qurban verilməsi hesabına başa gəlir ki, bu da ağır, dramatik nəticələrdə özünü göstərir” [1, s.124].

Həqiqətən də, biz ayrı-ayrı ölkələrin suveren haqlarının qorunması mövqeyindən çıxış edərkən bəzi hallarda bu suverenliyin insan haqları və hüquqlarının buxovuna çevrilməsinin şahidi ola bilərik. Amma istənilən halda, insan haqları və hüquqlarının azadlıq idealına uyğun bir şəkildə gerçəkləşdirilməsinin tərəfdarı kimi, biz beynəlxalq təşkilatlar üçün ayrı-ayrı dövlətlərin suveren haqlarına və hüquqlarına hörmət edilməsini zəruri hesab edərək, suveren dövlətlərin də sözügedn insan haqları və hüquqlarına riayət etmələrini vacib bilirik. Əks təqdirdə, prof. Ə.Abbasovun qeyd etdiyi kimi, buna riayət etməyən istənilən (müəllifə görə, avtokratik rejimli) bir ölkədə “demokratik frazeologiya ilə əməli fəaliyyət arasında uçurum yaranır ki, nəticədə cəmiyyətdə insani münasibətlərin ahəngdarlığı pozulur, disharmoniya, destruksiya dərinləşir və kəskinləşir. Belə şəraitdə, aydındır ki, insan hüquq və azadlıqlarının təmin olumasında ciddi problemlər yaranır” [1, s.125].

Biz artıq geniş şəkildə təsvir etdiyimiz prof. Ə.Abbasovun sözügedən əsərində yer almış növbəti müddəanı redaktə edərək qeyd etmək istərdik ki, müəllifin qeyd etdiyi kimi, “fəaliyyətdə olan hüquqi normalar və hüquqi şüur əsasında insan hüquqları ilə bağlı təsəvvürlər dayanmırsa,…” cümləsində həm təkrarçılıq, həm də mahiyyət baxımından “insan haqları ilə bağlı təsəvvürlər” ifadəsinin işlədilməsi yerinə düşərdi. Çünki istənilən bir cəmiyyətdə fəaliyyət göstərən hüquqi norma və hüquqi şüur özü kimi başqa bir insan hüquqları ilə deyil, məhz bütövlükdə insan hüquqlarına istiqamət göstərən, ümumi ideal olan insan haqları ilə tənzimlənir. Belə bir tənzimləmə fəaliyyətində isə ayrı-ayrı insan hüquqlarının bir-biri ilə rəqabət aparmaları da elə bütün bunların insan haqlarına uyğun olub-olmamasını aşkarlayır. Doğrudan da, ümumbəşəri və ideal olanlar insan haqlarına uyğun gəlməyərək, prof.Ə.Abbasovun təbirincə desək, “…qəbilə-tayfa, qrup maraqları dominantlıq təşkil edirsə, vətəndaşlar “özümüzünkülər”ə və “yadlar”a bölünürsə, ayrı-seçkilik psixologiyası aşılanırsa, deməli, demokratiya heç vaxt tam məzmunda və həcmdə qərarlaşa bilməz” [1, s.125].

**Nəticə**

Haqları insan hüquqları ilə eyniləşdirib yalnız bəşəriyyətin irəli sürdüyü ideya kimi təqdim edilməsi bu hadisənin mahiyyətini tam açıqlamır. Məqalədə “ontoloji tarazlıq” qorunması baxımından haqların tənzimləyici ideallar kimi geniş məzmuna malik olduğu vurğulanmışdır. Beləliklə də, haqların tarixən inkişaf etmiş kateqoriyalar olduğunu iddia etmiş mövqelərlə yanaşı, onların bəşəriyyətə bəxş edilmiş nemət olduğu qeyd edilir. Buna dəlil kimi, miflərdən tutmuş səmavi dinlərə qədər, o cümlədən də təbii hüquq nəzəriyyəçilərinin baxışlarında belə, bu məqamın gözardı edildiyi aşkarlanır. Həmçinin təbii hüquq nəzəriyyəsinin ortalığa çıxma səbəblərinin də işıqlandırılması mühüm maraq doğurmaya bilməz. Bütövlükdə isə insan haqları insan hüquqlarına istiqamətverici ideal rolunu oynayıb, onların ədalətli olmasının əsasıdır.

**İstifadə olunmuş ədəbiyyat**

1. Abbasov Ə. İnsan haqları və ictimai rəy. Bakı, “Təknur”, 2013, 218 s.
2. Məmmədov Z.C. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, “Bilik”, İrşad Mərkəzi, 1994, 340 s.
3. Сейла Бенхабиб. Притязания культуры. Равенство и разнообразие в глобальную эру, Пер. с англ.; под ред. В.И.Иноземцева. М.:Логос,2003, 305 с.
4. https://ru.wikipedia.org/wiki/%D0%93%D1%80%D0%BE%D1%86%D0%B8%D0%B9,_%D0%93%D1%83%D0%B3%D0%BE

**Rəyçi: f.e.d., prof. Ə.Abasov**